**Təhsil müəssisəsinin əmtəə nişanı**

**Xəzər Universiteti**

---

**Akkreditasiya qiymətləndirilməsinin nəticəsi olaraq Akkreditasiya Komissiyasının Yekun Hesabatında verdiyi tövsiyə və göstərişlərin icrasına dair 2024/2025-ci tədris ili üzrə**

# HESABAT

**Hesabat Xəzər Universitetinin Elmi Şurasının 04.07.2025-ci il tarixli iclasının 5/24-25 saylı qərarı ilə təsdiq edilmişdir.**

**Tarix 04.07.2025**

**İmza**

**(müəssisənin rəhbəri)**

**M.Y** ______________

**BAKI 2025**

**TƏHSİL MÜƏSSİSƏSİNƏ DAİR ÜMUMİ MƏLUMATLAR**

| | |
|---|---|
| Təhsil müəssisəsinin adı | Xəzər Universiteti |
| Sonuncu akkreditasiyaya dair şəhadətnamənin verilmə tarixi və müddəti | 19 sentyabr 2023<br>2023-2028 (5 il) |
| Təhsil müəssisəsinin lisenziyasına dair məlumatlar (dövlət təhsil müəssisələri istisna olmaqla) | ISN/0 – 488/2056 “25” fevral 2016-cı il, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən müddətsiz lisenziya verilmişdir. |
| Təhsil müəssisəsinin rəhbəri | Prof. Mahammad Nuriyev |
| Fakültələrin sayı | 6 |
| Kafedraların sayı | 20 |
| Bakalavriat səviyyəsi üzrə ixtisasların sayı | 37 |
| Magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | 30 |
| Doktorantura səviyyəsi üzrə ixtisasların (elm sahələri üzrə) sayı | 12 |
| Təhsil müəssisəsinin təhsilalan kontingenti | **Təhsilalan sayı**<br>Bakalavriat: 3697<br>Magistratura: 390<br>Doktorantura: 91<br>Elmlər doktorluğu proqramı üzrə: 0 |
| Ştatdakı professor-müəllim (və ya pedaqoji) heyətin sayı | 155 |
| Saathesabı yolu ilə işləyənlərin sayı | 410 |
| Müəssisənin elektron ünvanı və əlaqə telefonu | contact@khazar.org |
| Müəssisənin hüquqi ünvanı | Məhsəti küç. 41, AZ1096, Bakı, Azərbaycan |
| Müəssisənin faktiki ünvanı | Məhsəti küç. 41, AZ1096, Bakı, Azərbaycan |

1. **STRATEJİ İNKİŞAF**

*Yekun hesabatda qeyd olunan tövsiyələr əsasında təsdiq edilmiş fəaliyyətlərin sayını icra statutusuna uyğun olaraq cədvəldə qeyd edin*

| Tövsiyə | Müvafiq tövsiyələr üzrə nəzərdə tutulan fəaliyyətlərin icra vəziyyəti | | |
|---|---|---|---|
| | İcra edilib | İcradadır | İcra edilməyib |
| SİP-də strateji istiqamət, hədəf və alt hədəflər müəyyənləşdirilərkən onların icra olunma potensialının təhlil edilməsi və ölçülə bilən indikatorların müəyyən edilməsi; | + | | |
| SİP-in icrasının monitorinqinin səmərəli aparılması üçün illər üzrə ayrı-ayrılıqda, o cümlədən dövr üzrə konkret icra və hədəf göstəricilərinin müəyyənləşdirilməsi; | + | | |
| SİP-in qısa, orta və uzunmüddətli Tədbirlər Planları ilə dəstəklənməsi | | + | |

*Yekun hesabatda qeyd olunan tövsiyələr əsasında təsdiq edilmiş fəaliyyətlərin icrası ilə bağlı hesabatı cədvəldə qeyd edin*

| № | Tövsiyə | Fəaliyyət | İcra müddəti | Görülmüş işlərlə bağlı məlumat |
|---|---|---|---|---|
| 1.1 | SİP-də strateji istiqamət, hədəf və alt hədəflər müəyyənləşdirilərkən onların icra olunma potensialının təhlil edilməsi və ölçülə | Ölçüləbilən indikatorların müəyyən edilməsi<br>Ölçüləbilən indikatorların SİP-ə əlavə edilməsi | Dekabr 2024 | 18 dekabr 2023-cü il tarixli 742 saylı əmri ilə yaradılmış işçi qrupu Xəzər Universitetinin 5 illik SİP-in hazırlanması məqsədilə fəaliyyətini davam etdirmişdir. İşçi qrupu tərəfindən strateji istiqamətlər və hədəflərin icra olunma potensialı təhlil edilmiş, onların ölçülə bilənliyini təmin edən SMART indikatorları müəyyənləşdirilmişdir. Bu indikatorlar vasitəsilə SİP-in icrasının izlənməsi və hesabatlılığının daha səmərəli şəkildə həyata keçirilməsi təmin edilmişdir. |

| | | | | |
|---|---|---|---|---|
| | bilən indikatorların müəyyən edilməsi | | | |
| 1.2. | SİP-in icrasının monitorinqinin səmərəli aparılması üçün illər üzrə ayrı-ayrılıqda, o cümlədən dövr üzrə konkret icra və hədəf göstəricilərinin müəyyənləşdirilməsi | SİP-in icra və hədəf göstəricilərinin müəyyənləşdirilməsi | Dekabr 2024 | Xəzər Universitetinin rektorun 18 dekabr 2023-cü il tarixli 742 saylı əmrinə əsasən yaradılmış işçi qrupu tərəfindən 5 illik SİP-in icrasının monitorinqinin səmərəli təşkili məqsədilə icra və hədəf göstəriciləri müəyyən edilmişdir. Onlar "Strateji Planın hazırlanması və icrasının monitorinqi mexanizmi" sənədində öz əksini tapmışdır. Bu göstəricilər planın icrasının ölçülə bilənliyini, şəffaf izlənməsini və nəticələrin vaxtında qiymətləndirilməsini təmin edir. |
| 1.3. | SİP-in qısa, orta və uzunmüddətli Tədbirlər Planları ilə dəstəklənməsi | Yeni qısa, orta və uzunmüddətli Tədbirlər Planının hazırlanması | Dekabr 2024 - İyul 2025 | Xəzər Universitetinin rektorun 18 dekabr 2023-cü il tarixli 742 saylı əmrinə əsasən yaradılmış işçi qrupu 2024/25-ci tədris ili ərzində bir neçə dəfə toplanaraq tədbirlər planının hazırlanması və icrası ilə bağlı müzakirələr aparmışdır. Qısa müddətli tədbirlər çərçivəsində tədris prosesinin keyfiyyətinin artırılması, daxili monitorinq mexanizmlərinin təkmilləşdirilməsi və tələbə məmnuniyyətinin yüksəldilməsi istiqamətində konkret addımlar atılmışdır.<br>Orta müddətli tədbirlər planında universitetin beynəlxalq reytinqlərdə mövqeyinin gücləndirilməsi, elmi-tədqiqat fəaliyyətinin stimullaşdırılması, süni intellekt sahəsində yeni tədris və tədqiqat imkanlarının yaradılması, davamlı inkişaf siyasətinin tətbiqi və sosial məsuliyyət layihələrinin genişləndirilməsi əsas hədəflər kimi müəyyən olunmuşdur. Uzunmüddətli hədəflər isə universitetin beynəlxalq əməkdaşlıq şəbəkəsinin genişləndirilməsi, innovativ təhsil mühitinin daha da təkmilləşdirilməsi və ali təhsil sistemində rəqabət qabiliyyətinin daha da möhkəmləndirilməsinə yönəlmişdir. |

## 2. KEYFİYYƏT TƏMİNATI

*Yekun hesabatda qeyd olunan tövsiyələr əsasında təsdiq edilmiş fəaliyyətlərin sayını icra statutusuna uyğun olaraq cədvəldə qeyd edin*

| Tövsiyə | Müvafiq tövsiyələr üzrə nəzərdə tutulan fəaliyyətlərin icra vəziyyəti | | |
|---|---|---|---|
| | İcra edilib | İcradadır | İcra edilməyib |
| Keyfiyyət Təminatı Mərkəzinin strukturunun təkmilləşdirilməsi məqsədilə işçi heyətinin sayının artırılması istiqamətində işlərin aparılması | | + | |
| ATM əməkdaşlarının "Keyfiyyət Təminatı Siyasəti" barədə məlumatlı olması və bu siyasəti bölüşməsi sahəsində görülən işlərin davamlılığının təmin olunması | | + | |
| Fənn proqramları üzrə təlim nəticələrinə nəzarət mexanizminin işlənib hazırlanması | | + | |
| Keyfiyyət təminatı üzrə növbəti dövr üçün Fəaliyyət Planlarının təkmilləşdirilməsi | + | | |
| ATM-in akademik heyətinin gücləndirilməsi, ştatda olan professor-müəllim heyətinin sayının artırılması və sabit kadr potensialının formalaşdırılması | + | | |

*Yekun hesabatda qeyd olunan tövsiyələr əsasında təsdiq edilmiş fəaliyyətlərin icrası ilə bağlı hesabatı cədvəldə qeyd edin*

| № | Tövsiyə | Fəaliyyət | İcra müddəti | Görülmüş işlərlə bağlı məlumat |
|---|---|---|---|---|
| 2.1. | Keyfiyyət Təminatı Mərkəzinin strukturunun təkmilləşdirilməsi məqsədilə işçi heyətinin sayının artırılması istiqamətində işlərin aparılması | Keyfiyyət Təminatı Mərkəzinin yeni əməkdaşın işə qəbulu | Sentyabr 2024 - Dekabr 2024 | Keyfiyyətin Təminatı Mərkəzinin fəaliyyət imkanlarının genişləndirilməsi və işçi heyətinin sayının artırılması istiqamətində tədbirlər davam etdirilir. Bu məqsədlə, Mərkəzin kadr potensialının gücləndirilməsi məqsədilə 2025-ci ilin 1 sentyabr tarixindən etibarən koordinator vəzifəsinə bir əməkdaş işə qəbul olunmuşdur. |
| 2.2. | ATM əməkdaşlarının "Keyfiyyət Təminatı Siyasəti" barədə məlumatlı olması və bu siyasəti bölüşməsi sahəsində görülən işlərin davamlılığının təmin olunması | Xəzər Universitetində işə yeni cəlb olunmuş əməkdaşların "Keyfiyyət Təminatı Siyasəti" haqqında məlumatlandırılması | Sentyabr 2024 - İyul 2025 | 2024/25-ci tədris ilində işə qəbul olunmuş yeni əməkdaşların Universitetin "Keyfiyyətin Təminatı Siyasəti" sənədi ilə tanışlığı təmin edilmişdir. Bu istiqamətdə maarifləndirmə prosesi davamlı xarakter daşıyır və mütəmadi qaydada həyata keçirilir. |
| 2.3. | Fənn proqramları üzrə təlim nəticələrinə nəzarət mexanizminin işlənib hazırlanması | Fənn proqramları üzrə təlim nəticələrinə nəzarət mexanizminin işlənib hazırlanması | Sentyabr 2024 - İyun 2025 | Hesabat dövrü ərzində fənn proqramları üzrə təlim nəticələrinə nəzarət mexanizminin hazırlanması istiqamətində işlər görülmüşdür. Bu məqsədlə, yaradılmış işçi qrupu fənn təlim nəticələrinin təhsil proqramı nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan nəticələrin müəyyən edilməsi, monitorinq və qiymətləndirmə prosedurlarını əhatə edən mexanizm layihəsini hazırlanmışdır.<br>Hazırlanmış sənədin 2025-ci ilin sentyabr ayından etibarən bir neçə təhsil proqramı üzrə pilot tətbiqi nəzərdə tutulur. Gözlənilir ki, bu tətbiq universitetdə fənn proqramlarının təlim nəticələrinə vahid nəzarət mexanizminin formalaşdırılmasına və akkreditasiya tələbləri ilə beynəlxalq keyfiyyət təminatı standartlarına uyğunluğun artırılmasına töhfə verəcəkdir. |

| | | | | |
|---|---|---|---|---|
| 2.4. | Keyfiyyət təminatı üzrə növbəti dövr üçün Fəaliyyət Planlarının təkmilləşdirilməsi | Keyfiyyət təminatı üzrə növbəti dövr üçün Fəaliyyət Planlarının təkmilləşdirilməsi | Sentyabr 2024 - İyun 2025 | Növbəti dövr üçün fəaliyyət planları əvvəlki nəticələrin təhlili və beynəlxalq təcrübə əsasında yenilənməsinə dair təkliflər hazırlanmışdır. Tədbirlər qısa, orta və uzunmüddətli mərhələlər üzrə strukturlaşdırılmış, ölçülə bilən göstəricilər və monitorinq mexanizmləri müəyyən edilmişdir. Təkmilləşdirilmiş planlar keyfiyyət təminatı proseslərinin daha sistemli və nəticəyönümlü aparılmasına, eləcə də universitetin beynəlxalq standartlara uyğunluğunun artırılmasına xidmət edəcək. |
| 2.5. | ATM-in akademik heyətinin gücləndirilməsi, ştatda olan professor-müəllim heyətinin sayının artırılması və sabit kadr potensialının formalaşdırılması | Tam ştatla çalışan professor-müəllim heyətinin sayının artırılması | Sentyabr 2024 - İyun 2025 | Xəzər Universitetində professor-müəllim heyətinin sayının artırılması və sabit kadr potensialının formalaşdırılması məqsədilə 2024/25-ci tədris ili ərzində 12 əməkdaş tam ştat əsasla işə qəbul edilmişdir. Bu addım universitetin akademik kadr təminatının gücləndirilməsinə və tədris prosesinin dayanıqlığının təmin olunmasına xidmət etmişdir. |

**3.TƏLİM VƏ TƏDRİS**

*Yekun hesabatda qeyd olunan tövsiyələr əsasında təsdiq edilmiş fəaliyyətlərin sayını icra statutusuna uyğun olaraq cədvəldə qeyd edin*

| Tövsiyə | Müvafiq tövsiyələr üzrə nəzərdə tutulan fəaliyyətlərin icra vəziyyəti | | |
|---|---|---|---|
| | İcra edilib | İcradadır | İcra edilməyib |
| “5 günlük iş rejimi”nin təmin edilməsi, dərs cədvəllərində günlük bölgünün optimallaşdırılması və rasionallaşdırılması | | + | |
| Tədris fənlərinin təhsil proqramlarının tələblərinə uyğunluğunun təmin olunması | | + | |

| | | | |
|---|---|---|---|
| Fənlərin həftəlik ümumi auditoriya və auditoriyadan kənar saatlarının miqdarının təhsil proqramlarına və qanunvericiliyin tələblərinə uyğunluğunun təmin edilməsi | | + | |
| Əsas normativ sənədlərin (ixtisasın (ixtisaslaşmanın) tədris planı, ixtisasın (ixtisaslaşmanın) tədris qrafiki, ixtisas (ixtisaslaşma) üzrə illik işçi tədris planı, tələbənin fərdi tədris planı, müəllimin illik işçi tədris planı) struktur baxımından tələblərə uyğunlaşdırılması | | + | |
| Müəllimlər tərəfindən təşkil edilən imtahanqabağı məsləhət saatlarının onların akademik yüklərində əks olunması, məsləhət saatlarının tələbələrə əlçatanlığı təmin edilməklə konkret cədvəllər şəklində təşkil edilməsi | | + | |
| Fənn sillabuslarının tərtibatının təkmilləşdirilməsi (ədəbiyyat siyahısının müasirləşdirilməsi, dərs mövzularının tədqiqatyönümlülüyünün artırılması və s.) | | + | |
| Tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsi sisteminin qüvvədə olan qanunvericiliyin tələblərinə uyğun formalaşdırılması | | + | |

| | | | |
|---|---|---|---|
| Professor-müəllim heyətinin 70 faizindən çoxunun əsas iş yeri müvafiq ATM olması üçün optimallaşma işlərinin aparılması | | + | |

*Yekun hesabatda qeyd olunan tövsiyələr əsasında təsdiq edilmiş fəaliyyətlərin icrası ilə bağlı hesabatı cədvəldə qeyd edin*

| № | Tövsiyə | Fəaliyyət | İcra müddəti | Görülmüş işlərlə bağlı məlumat |
|---|---|---|---|---|
| 3.1. | "5 günlük iş rejimi"nin təmin edilməsi, dərs cədvəllərində günlük bölgünün optimallaşdırılması və rasionallaşdırılması | Dərs cədvəllərinin təkmilləşdirilməsi | Sentyabr 2024-Fevral 2025 | Həmin optimallaşdırılmanın mərhələli şəkildə həyata keçirilməsi planlaşdırılır. 2024/25-ci tədris ilinin yaz semestrində Təbiət elmləri və Mühəndislik fakültəsində Neft-qaz mühəndisliyi, İnşaat mühəndisliyi və Kimya mühəndisliyi ixtisaslarının dərs cədvəllərində günlük bölgünün optimallaşdırılması və rasionallaşdırılması aparılmışdır. |
| 3.2. | Tədris fənlərinin təhsil proqramlarının tələblərinə uyğunluğunun təmin olunması | Tədris fənlərinin təhsil proqramlarının tələblərinə uyğunluğuna nəzarət | Sentyabr 2024-İyun 2025 | 2024/2025-ci tədris ili ərzində tədris olunan fənlərin mövcud təhsil proqramlarının tələblərinə uyğunluğunun təmin olunması məqsədilə təhlil aparılmışdır. Təhlil nəticəsində bəzi hallarda tədris olunan fənlərin adları və kredit sayı ilə təhsil proqramlarında nəzərdə tutulan tələblər arasında fərqlərin mövcud olduğu müəyyən edilmişdir. |
| 3.3 | Fənlərin həftəlik ümumi auditoriya və auditoriyadan kənar saatlarının miqdarının təhsil proqramlarına və qanunvericiliyin tələblərinə uyğunluğunun təmin edilməsi | Auditoriya və auditoriyadan kənar saatların miqdarına nəzarət | Sentyabr 2024-İyun 2025 | Akkreditasiya komissiyanın fənlərin həftəlik ümumi auditoriya və auditoriyadan kənar saatlarının miqdarının təhsil proqramlarına və mövcud qanunvericiliyin tələblərinə uyğunluğunun təmin edilməsi tövsiyəsinə uyğun olaraq 2024/2025-ci tədris ili ərzində işlər görülmüşdür. İlk növbədə ixtisaslar üzrə tədris planlarında nəzərdə tutulmuş həftəlik yük, həmçinin auditoriya və auditoriyadan kənar saatların bölgüsü təhlil edilmişdir.<br>Aparılan təhlilin nəticələrinə əsaslanaraq uyğunluğun təmin olunması istiqamətində təkliflərin hazırlanması planlaşdırılır. |

| | | | | |
|---|---|---|---|---|
| 3.4. | Əsas normativ sənədlərin (ixtisasın (ixtisaslaşmanın) tədris planı, ixtisasın (ixtisaslaşmanın) tədris qrafiki, ixtisas (ixtisaslaşma) üzrə illik işçi tədris planı, tələbənin fərdi tədris planı, müəllimin illik işçi tədris planı) struktur baxımından tələblərə uyğunlaşdırılması | Normativ sənədlərin təkmilləşdirilməsi | Sentyabr 2024-İyun 2025 | Universitetin bəzi normativ sənədləri, o cümlədən ixtisas üzrə illik işçi tədris planı, tələbənin fərdi tədris planı və müəllimin illik işçi tədris planı birbaşa SIMS elektron sistemi vasitəsilə hazırlanır. Sözügedən sənədlərin tələblərə uyğunlaşdırılması məqsədilə ilk növbədə onların strukturu təhlil edilmiş və sənədlər arasında mövcud fərqlər müəyyənləşdirilmişdir. |
| 3.5. | Müəllimlər tərəfindən təşkil edilən imtahanqabağı məsləhət saatlarının onların akademik yüklərində əks olunması, məsləhət saatlarının tələbələrə əlçatanlığı təmin edilməklə konkret cədvəllər şəklində təşkil edilməsi | Aralıq və final imtahan cədvəllərinə məsləhət saatlarının əlavə edilməsi | Dekabr 2024 - May 2028 | Professor-müəllim heyəti 2024/25-ci tədris ilindən etibarən fənn sillabuslarını hazırlayarkən final imtahanı ərəfəsində nəzərdə tutulan məsləhət saatlarını da sillabuslara daxil etmişdir. Bununla belə, qeyd olunan məsləhət saatlarının müəllimlərin akademik yüklərində nəzərə alınması həyata keçirilmişdir. |
| 3.6. | Fənn sillabuslarının tərtibatının təkmilləşdirilməsi (ədəbiyyat siyahısının müasirləşdirilməsi, dərs mövzularının tədqiqatyönümlülüyünün artırılması və s.) | Sillabusların təkmilləşdirilməsi | Sentyabr 2024 - İyun 2025 | 2024/2025-ci tədris ilinin payız və yaz semestrlərində Keyfiyyət Təminatı Mərkəzi tərəfindən İqtisadiyyat və Menecment, həmçinin Psixologiya departamentlərində 57 fənn sillabusunda göstərilən tədris resurslarının sayı və nəşr ili üzrə monitorinq aparılmışdır.<br>Monitorinqin nəticələrinə əsasən, 12 fənnin sillabusunda qeyd olunmuş ədəbiyyat siyahısında yenilənməyə ehtiyac olduğu müəyyən edilmiş və müvafiq dəyişikliklər edilmişdir. Bu addım fənnin tədris resurslarının aktuallığının və müasir tələblərə uyğunluğunun təmin olunmasına xidmət etmişdir. |

| | | | | |
|---|---|---|---|---|
| 3.7. | Tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsi sisteminin qüvvədə olan qanunvericiliyin tələblərinə uyğun formalaşdırılması | Xəzər universitetində tətbiq olunan tələbələrin bilik və bacarıqların qiymətləndirməsi sistemin qöstəricilərinin qüvvədə olan qanunvericiliyinin tələblərinə uyğun ekvivalentləşdirən sənədin hazırlanması və təsdiqi | Oktyabr 2024 - Fevral 2025 | Xəzər Universitetində tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsi sisteminin göstəricilərinin qüvvədə olan qanunvericiliyin tələblərinə uyğun ekvivalentləşdirilməsi istiqamətində işlər aparılmışdır. Bu məqsədlə, beynəlxalq təcrübə öyrənilmiş, universitetlərdə tətbiq olunan qiymətləndirmə meyarları təhlil edilmişdir. Aparılmış təhlilin nəticələri əsasında qüvvədə olan qanunvericiliyin tələblərinə uyğun şəkildə ekvivalentləşdirici sənəd hazırlanmışdır. |
| 3.8. | Professor-müəllim heyətinin 70 faizindən çoxunun əsas iş yeri müvafiq ATM olması üçün optimallaşma işlərinin aparılması | Əsas iş yeri Xəzər universiteti olan professor-müəllim heyyətinin sayının artırılması | Sentyabr 2024 - İyun 2025 | Xəzər Universitetində professor-müəllim heyətinin sayının artırılması və sabit kadr potensialının formalaşdırılması məqsədilə 2024/25-ci tədris ili ərzində yeni 12 əməkdaş tam ştat əsasla işə qəbul edilmişdir. Bu proses mərhələli davam etdirilməklə professor-meəllim heyətinin əsas iş yerinin Xəzər Universiteti olması üçün müvafiq optimallaşdırılma aparılmışdır. |

## 4. ELMİ-TƏDQİQAT

*Yekun hesabatda qeyd olunan tövsiyələr əsasında təsdiq edilmiş fəaliyyətlərin sayını icra statutusuna uyğun olaraq cədvəldə qeyd edin*

| Tövsiyə | Müvafiq tövsiyələr üzrə nəzərdə tutulan fəaliyyətlərin icra vəziyyəti | | |
|---|---|---|---|
| | İcra edilib | İcradadır | İcra edilməyib |
| Elmi tədqiqat fəaliyyəti üzrə idarəetmə strukturunun formalaşdırılması; | + | | |
| Elmi tədqiqat Strategiyasının növbəti dövr üçün qısa, orta və uzunmüddətli fəaliyyət planları ilə | + | | |

| | | | |
|---|---|---|---|
| dəstəklənməsi; | | | |
| Əqli mülkiyyətin qorunması, elmi tədqiqat fəaliyyəti üzrə patentlərin əldə edilməsi və kommersiyalaşdırılması ilə bağlı təkmilləşdirmənin aparılması; | | + | |
| Elmi dərəcəli tədqiqatçıların payının ümumi akademik heyətə nisbətdə artırılması; | + | | |
| Elmi tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiya mexanizminin təkmilləşdirilməsi | + | | |

*Yekun hesabatda qeyd olunan tövsiyələr əsasında təsdiq edilmiş fəaliyyətlərin icrası ilə bağlı hesabatı cədvəldə qeyd edin*

| № | Tövsiyə | Fəaliyyət | İcra müddəti | Görülmüş işlərlə bağlı məlumat |
|---|---|---|---|---|
| 4.1. | Elmi tədqiqat fəaliyyəti üzrə idarəetmə strukturunun formalaşdırılması | Tədqiqat Mərkəzləri və ya İnstitutların yaradılması Elmi tədqiqat fəaliyyəti üzrə struktur bölmələrdə müvafiq vəzifə təlimatlarına dəyişikliklərin aparılması | Yanvar 2024 - İyun 2025 | Elmi-tədqiqat fəaliyyəti üzrə idarəetmə strukturunun təkmilləşdirilməsi məqsədilə müstəqil fəaliyyət göstərən 10 yeni elmi tədqiqat mərkəzi – Biotexnologiya Elmi-tədqiqat Mərkəzi (16 sentyabr 2024-cü il), Astrofizika və Kosmologiya Tədqiqat Mərkəzi (15 oktyabr 2024), Psixologiya Tədqiqat Mərkəzi (1 dekabr 2024-cü il), Yeni maddələr və Yaşıl Kimya Elmi-tədqiqat Mərkəzi (18 dekabr 2024-cü il), Enerji Sistemləri Elmi-tədqiqat Mərkəzi (18 dekabr 2024-cü il), Beynəlxalq və Qlobal Ali Təhsil Mərkəzi (30 yanvar 2025-ci il), Tətbiqi Riyaziyyat Tədqiqat Mərkəzi (13 fevral 2025-ci il), Təhsil Elmləri üzrə Elmi-Tədqiqat Mərkəzi (25 fevral 2025-ci il), Nəzəri Molekulyar Mühəndislik və Hesablama Elmi Tədqiqat Mərkəzi (04 aprel 2025-ci il), Yeni yaranan texnologiyalar və süni intellekt elmi-tədqiqat mərkəzi (01 iyul 2025-ci il) qurulmuşdur. |

| | | | | |
|---|---|---|---|---|
| 4.2. | Elmi tədqiqat Strategiyasının növbəti dövr üçün qısa, orta və uzunmüddətli fəaliyyət planları ilə dəstəklənməsi | Elmi tədqiqat Strategiyasının qısa müddətli fəaliyyət planlanının hazırlanması<br>Elmi tədqiqat Strategiyasının orta müddətli fəaliyyət planının hazırlanması<br>Elmi tədqiqat Strategiyasının uzunmüddətli fəaliyyət planının hazırlanması | Yanvar 2024 - İyun 2025 | Hesabat dövrü ərzində müvafiq fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir. Elmi-tədqiqat strategiyasının əsasını təşkil edən strateji hədəflər: regional və beynəlxalq səviyyədə nüfuzun artırılması, institusional dəstək strukturlarının gücləndirilməsi, əməkdaşlıq və tərəfdaşlıqların genişləndirilməsi, bərabərlik və inkluzivliyin təşviqi, eləcə də tələbələrin tədqiqat fəaliyyətlərinə cəlb olunması mərhələli şəkildə həyata keçirilməkdədir.<br>Qısa və orta müddətli müddətli fəaliyyət planları çərçivəsində universitetdə yeni elmi-təqdiqam mərkəzlərin yaradılması, müasir tələblərə cavab verən laboratoriyaların açılması, gənc tədqiqatçıların dəstəklənməsi və elmi məqalələrin beynəlxalq bazalarda indeksləşdirilməsinin təşviqi üzrə tədbirlər icra edilmişdir. Orta müddətli hədəflərə uyğun olaraq, mövcud tədqiqat mərkəzlərinin fəaliyyətinin genişləndirilməsi, süni intellekt və digər prioritet sahələrdə ixtisaslaşmış laboratoriyaların qurulması, tərəfdaş universitetlərlə birgə qrant proqramlarında iştirak və yeni innovativ tədqiqat platformalarının formalaşdırılması nəzərdə tutulmuşdur. Uzunmüddətli plan isə Xəzər Universitetinin regional və qlobal elmi məkanda nüfuzunun gücləndirilməsini, interdisiplinar tədqiqat mühitinin yaradılmasını və tələbələrin elmi fəaliyyətlərə daha geniş inteqrasiyasını təmin etməyə yönəlmişdir. |
| 4.3. | Əqli mülkiyyətin qorunması, elmi tədqiqat fəaliyyəti üzrə patentlərin əldə edilməsi və kommersiyalaşdırılması ilə bağlı təkmilləşdirmənin aparılması | Əqli mülkiyyətin qorunması və mühafizəsinə dair universitetdaxili əsasnamənin hazırlanması | Yanvar 2024 - İyun 2025 | İzmir Texnologiya İnstitutunun əqli mülkiyyətin idarə olunması sahəsindəki təcrübəsi öyrənilmişdir. Bu təcrübənin öyrənilməsi nəticəsində universitetdə müəllimlərin, tədqiqatçıların və tələbələrin elmi və yaradıcılıq fəaliyyətindən yaranan əqli mülkiyyət məhsullarının qorunması üçün daxili normativ-hüquqi sənədin hazırlanmasına başlanılmışdır. |
| 4.4. | Elmi dərəcəli tədqiqatçıların payının ümumi akademik | Elmi dərəcəsi olan yeni tədqiqatçıların işə cəlb olunması | Yanvar 2024 - İyun 2025 | 2024/25-ci tədris ilinin payız və yaz semestrləri ərzində 16 fəlsəfə doktoru dərəcəli tədqiqatçı həm pedaqoji fəaliyyətə, həm də yeni yaradılmış Biotexnologiya Elmi-tədqiqat Mərkəzi, Astrofizika və Kosmologiya Tədqiqat Mərkəzi, Psixologiya Tədqiqat Mərkəzi, Yeni |

| | | | | |
|---|---|---|---|---|
| | heyətə nisbətdə artırılması | | | maddələr və Yaşıl Kimya Elmi-tədqiqat Mərkəzi, Enerji Sistemləri Elmi-tədqiqat Mərkəzi Beynəlxalq və Qlobal Ali Təhsil Mərkəzi, Tətbiqi Riyaziyyat Tədqiqat Mərkəzi, Təhsil Elmləri üzrə Elmi-Tədqiqat Mərkəzi, Nəzəri Molekulyar Mühəndislik və Hesablama Elmi Tədqiqat Mərkəzi, Yeni yaranan texnologiyalar və süni intellekt elmi-tədqiqat mərkəziişə cəlb olunmuşdur. |
| 4.5. | Elmi tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiya mexanizminin təkmilləşdirilməsi | Dərslər zamanı elmi-tədqiqat və ixtisas laboratoriyalarından istifadənin təkmilləşdirilməsi Tədqiqat əsaslı tədris proqramlarının təkmilləşdirilməsi | Yanvar 2024 - İyun 2025 | 2025-ci ilin fevral ayında Xəzər Universitetinin Təbiət elmləri və mühəndislik fakültəsinin Fizika və elektronika departamentində Türkiyənin "Yıldırım Elektronik" şirkəti tərəfindən Elektrik Güc Sistemləri laboratoriyası yaradılmışdır.<br>https://khazar.org/az/news/7909<br>Elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiya mexanizminin təkmilləşdirilməsi məqsədilə Xəzər Universitetində il ərzində təhsilalanlar üçün elmi-tədqiqat nəticələri barədə 35-dən çox seminar keçirilmişdir. Bununla yanaşı, tələbələrin həm dinləyici qismində, həm də elmi tədqiqat araşdırılmaları və məqalələri ilə konfranslarda iştirakı təşfiq olunur.<br>https://khazar.org/az/news/7752<br>https://khazar.org/az/news/7617<br>https://khazar.org/az/news/7621<br>https://khazar.org/az/news/7615<br>https://khazar.org/az/news/7620<br>https://khazar.org/az/news/7631<br>https://khazar.org/az/news/7695<br>https://khazar.org/az/news/7728<br>https://khazar.org/az/news/7744<br>https://khazar.org/az/news/7787 |

## 5. İDARƏETMƏ SİSTEMİ

*Yekun hesabatda qeyd olunan tövsiyələr əsasında təsdiq edilmiş fəaliyyətlərin sayını icra statutusuna uyğun olaraq cədvəldə qeyd edin*

| Tövsiyə | Müvafiq tövsiyələr üzrə nəzərdə tutulan fəaliyyətlərin icra vəziyyəti | | |
|---|---|---|---|
| | İcra edilib | İcradadır | İcra edilməyib |
| Elmi Şuranın tərkibinə daxil olan işəgötürənlərin aktiv təmsilçiliyinin təşkil edilməsi | + | | |
| Tədris prosesində fəaliyyətin səmərəliliyinin yüksəldilməsi və təkmilləşdirilməsi üçün Tədris Metodiki Şuranın yaradılması | | | + |
| Daxili kommunikasiyanın gücləndirilməsi məqsədilə elektron sənəd dövriyyəsinin tətbiq olunması | | + | |
| Keyfiyyət Təminatı Mərkəzinin fəaliyyətində müstəqilliyin təmin olunması | | | + |

*Yekun hesabatda qeyd olunan tövsiyələr əsasında təsdiq edilmiş fəaliyyətlərin icrası ilə bağlı hesabatı cədvəldə qeyd edin*

| № | Tövsiyə | Fəaliyyət | İcra müddəti | Görülmüş işlərlə bağlı məlumat |
|---|---|---|---|---|
| 5.1. | Elmi Şuranın tərkibinə daxil olan işəgötürənlərin aktiv təmsilçiliyinin təşkil edilməsi | Elmi Şurada işəgötürənlərin aktiv iştirakının təmin edilməsi | Sentyabr 2024 - İyun 2025 | Xəzər Universitetinin 2024/25-ci tədris ili üçün Elmi Şurasının yeni tərkibi rektorun 2024-cü il 11 oktyabr tarixli 1/24-25 saylı saylı əmri ilə təsdiqlənmişdir. Həmin qərara əsasən, Elmi Şuranın tərkibinə 3 nəfər işəgötürən daxil edilmişdir. |

| | | | | |
|---|---|---|---|---|
| 5.2. | Tədris prosesində fəaliyyətin səmərəliliyinin yüksəldilməsi və təkmilləşdirilməsi üçün Tədris Metodiki Şuranın yaradılması | Öyrənmə və öyrətmə mərkəzi tərəfindən beynəlxalq təcrübənin öyrənilməsi və təhlilin aparılması<br>Təhlil əsasında Tədris prosesində fəaliyyətin səmərəliliyinin yüksəldilməsinə dair təkliflərin hazırlanması | Sentyabr 2024 - Yanvar 2025<br><br>Fevral 2025- İyun 2025 | Öyrənmə və öyrətmə mərkəzi tərəfindən beynəlxalq təcrübə araşdırılmış və növbəti mərhələdə bu istiqamətdə təkliflərin hazırlanması planlaşdırılır. |
| 5.3. | Daxili kommunikasiyanın gücləndirilməsi məqsədilə elektron sənəd dövriyyəsinin tətbiq olunması | Uyğun elektron sənəd sistemin seçilməsi və alınması | Sentyabr 2024- Sentyabr 2025 | Elektron sənəd dövriyyəsinin tətbiq olunması məqsədilə 2025-ci ilin 13 mart tarixində Xəzər Universitetinin əməkdaşları ilə SİNAM şirkətinin nümayəndələrinin görüşü keçirilmişdir. Görüş zamanı Elektron Sənəd Dövriyyəsi və Arxiv Sistemi haqqında ətraflı məlumat təqdim olunmuşdur. Daha sonra məsələ universitetin rəhbərliyi ilə müzakirə edilmiş və sistemin pilot olaraq Xəzər Universitetində tətbiqi barədə müsbət qərar qəbul edilmişdir. |
| 5.4. | Keyfiyyət Təminatı Mərkəzinin fəaliyyətində müstəqilliyin təmin olunması | Əsasnamə və strukturun yenidən işlənib təkmilləşdirilməsi üçün təkliflərin hazırlanması | Oktyabr 2024- İyun 2025 | 2024/25-ci tədris ili üzrə fəaliyyət planına əsasən Keyfiyyət Təminatı Mərkəzinin müstəqilliyinin təmin olunması məqsədilə əsasnamə və strukturun yenidən işlənməsi və təkmilləşdirilməsi üçün təkliflərin hazırlanması planlaşdırılmışdır. Rektor vəzifəsinin vakant olması və həmin vəzifənin müvəqqəti olaraq Tədris işləri üzrə prorektora həvalə olunması səbəbindən məsələ üzrə yekun qərarların qəbulu mümkün olmamışdır. Bununla yanaşı, hazırlanmış müəyyən təkliflərin müzakirəsi nəzərdə tutulur. |

## 6. İNFRASTRUKTUR

*Yekun hesabatda qeyd olunan tövsiyələr əsasında təsdiq edilmiş fəaliyyətlərin sayını icra statutusuna uyğun olaraq cədvəldə qeyd edin*

| Tövsiyə | Müvafiq tövsiyələr üzrə nəzərdə tutulan fəaliyyətlərin icra vəziyyəti | | |
|---|---|---|---|
| | İcra edilib | İcradadır | İcra edilməyib |

| | | | |
|---|---|---|---|
| Tibb xidmətinin ATM-in bütün tədris binalarında təşkil edilməsi; | | + | |
| İstifadə nəticəsində gəlirlərin əldə edilməsi məqsədilə laboratoriyaların pasportlaşdırılması; | | + | |
| İnklüziv tədris infrastrukturunun bütün tədris binalarında təşkil edilməsi. | | | + |

*Yekun hesabatda qeyd olunan tövsiyələr əsasında təsdiq edilmiş fəaliyyətlərin icrası ilə bağlı hesabatı cədvəldə qeyd edin*

| № | Tövsiyə | Fəaliyyət | İcra müddəti | Görülmüş işlərlə bağlı məlumat |
|---|---|---|---|---|
| 6.1 | Tibb xidmətinin ATM-in bütün tədris binalarında təşkil edilməsi | Xəzər universitetinin Bəşir Səfəroğlu 122 ünvanında yerləşən korpusunda tibb xidmətinin həyata keçirilməsi | Yanvar 2024- Sentyabr 2025 | 2024/25-ci tədris ilinin sentyabr ayından etibarən Xəzər Universitetinin Bəşir Səfəroğlu 122 ünvanında yerləşən korpusunda həkim-terapevtin işə cəlb edilməsi ilə tibb xidməti təşkil olunmuşdur. Digər tədris binalarında tibb xidməti əvvəlki illərdən mövcud olduğundan, bu addım universitetin bütün binalarında tibbi xidmətin əhatəliliyini tam təmin etmişdir. |
| 6.2. | İstifadə nəticəsində gəlirlərin əldə edilməsi məqsədilə laboratoriyaların pasportlaşdırılması | Gəlir potensialı olan laboratoriyaların siyahısının müəyyən edilməsi | Sentyabr 2024- İyul 2025 | Universitetdə fəaliyyət göstərən laboratoriyaların gəlir gətirmə imkanları təhlil edilmiş və onların potensialı üç kateqoriyada müəyyənləşdirilmişdir. Yüksək gəlir potensialı olan laboratoriyalar Nanotexnologiya laboratoriya, Bərpa olunan enerji laboratoriyası, Biomühəndislik laboratoriyası və Baytarlıq laboratoriyası və klinika kommersiyalaşdırma, patentləşdirmə və xidmət sahəsində geniş imkanlara malikdir. Orta gəlir potensialı əsasən mühəndislik və ekoloji laboratoriyalarda müşahidə olunur, məhdud potensial isə tədris yönümlü laboratoriyalara aiddir.<br>Gələcək dövrdə yüksək gəlir potensiallı laboratoriyaların inkişafı və kommersiyalaşdırılması üzrə fəaliyyət planının hazırlanması nəzərdə tutulur. Bununla yanaşı, orta potensiala malik laboratoriyalarda əlavə investisiya və əməkdaşlıq imkanlarının artırılması, məhdud potensiala malik |

| | | | | |
|---|---|---|---|---|
| | | | | laboratoriyalarda isə tədris keyfiyyətinin və beynəlxalq qrant layihələrinə çıxış imkanlarının gücləndirilməsi planlaşdırılır. |
| 6.3. | İnklüziv tədris infrastrukturunun bütün tədris binalarında təşkil edilməsi | Mərkəzi binanın inklüziv tədris infrastrukturunun təmin edilməsinə dair təkliflərin hazırlanması | Fevral-İyun 2025 | Mərkəzi binada mövcud fiziki strukturun əlçatanlıq baxımından vəziyyəti təhlil edilmişdir. Binanın köhnə tikili olması səbəbindən pandusların quraşdırılması və tam inklüziv mühitin yaradılması məhdud imkanlarla həyata keçirilə bilər. Bununla yanaşı, xüsusi sanitar qovşaqların təşkili, auditoriyaların əlçatanlıq baxımından uyğunlaşdırılması və tədris məkanlarında dəstəkçi həllərin tətbiqi zəruri hesab olunmuşdur. Bu məsələ 2025-ci ilin aprelin 8-də Memarlıq və Dizayn Departamentinin professor-müəllim heyəti ilə müzakirə olunmuş və mövcud struktur çərçivəsində alternativ həll yollarına dair ilkin təkliflər hazırlanmışdır. Hazırlanmış ümumiləşdirilmiş təkliflərə əsasən, Mərkəzi binada inklüziv tədris infrastrukturunun mərhələli şəkildə inkişaf etdirilməsi nəzərdə tutulur. İlk mərhələdə fiziki mühitin qismən uyğunlaşdırılması, sonrakı mərhələlərdə isə texniki vasitələrin və rəqəmsal resursların əlçatanlığının artırılması planlaşdırılır. Bu yanaşma universitetdə təhsil alan bütün tələbələrin bərabər imkanlarla tədris prosesində iştirakına şərait yaradacaqdır. |

## 7. BEYNƏLMİLƏLLƏŞMƏ

*Yekun hesabatda qeyd olunan tövsiyələr əsasında təsdiq edilmiş fəaliyyətlərin sayını icra statutusuna uyğun olaraq cədvəldə qeyd edin*

| Tövsiyə | Müvafiq tövsiyələr üzrə nəzərdə tutulan fəaliyyətlərin icra vəziyyəti | | |
|---|---|---|---|
| | İcra edilib | İcradadır | İcra edilməyib |
| Mübadilə proqramlarında iştirak edən təhsilalanların sayında müsbət dinamikaya nail olmaq üçün təşviq tədbirlərinin artırılması | + | | |

| | | | |
|---|---|---|---|
| İkili diplom proqramından yararlanan tələbələrin sayının artırılması üçün fəaliyyətin təkmilləşdirilməsi | + | | |
| Beynəlxalq reytinqlərdə təmsil olunma ilə bağlı növbəti dövr üçün Strateji Planda hədəf indikatorlarının qoyulması zamanı onların ölçüləbilən olmasına diqqətin artırılması və rəqəmsal dinamikanın izlənilməsi üçün müvafiq meyarların müəyyən edilməsi | | + | |
| Beynəlmiləlləşmə performansını qiymətləndirməyə şərait yaradan monitorinq mexanizminin təkmilləşdirilməsi | | + | |
| Strateji Planda "Beynəlmiləlləşmə istiqaməti üzrə nəzərdə tutulan bütün hədəflər və tədbirlər planı üzrə hesabatlılığın təmin olunması | | + | |

*Yekun hesabatda qeyd olunan tövsiyələr əsasında təsdiq edilmiş fəaliyyətlərin icrası ilə bağlı hesabatı cədvəldə qeyd edin*

| № | Tövsiyə | Fəaliyyət | İcra müddəti | Görülmüş işlərlə bağlı məlumat |
|---|---|---|---|---|
| 7.1 | Mübadilə proqramlarında iştirak edən təhsilalanların sayında müsbət dinamikaya nail olmaq üçün təşviiq tədbirlərinin artırılması; | Mübadilə proqramları haqqında məlumat sessiyalarının keçirilməsi;<br><br>Universitetin vebsaytında, sosial media hesablarında, | Sentyabr 2024 | 11 oktyabr 2024-cü il tarixində Beynəlxalq Əlaqələr Şöbəsi tərəfindən universitetin bakalavriat, magistratura və doktorantura tələbələri üçün Erasmus+ KA171 layihəsi çərçivəsində mübadilə proqramları barədə məlumat sessiyası təşkil edilmişdir. (https://khazar.org/az/news/7611)<br><br>2025/26-cı tədris ili ərzində universitetin rəsmi vebsaytında, sosial media hesablarında, elektron-poçtla və lövhələrdə məlumatlandırıcı posterlər paylaşılmışdır. |

| | | | | |
|---|---|---|---|---|
| | | elektron-poçt ilə və lövhələrdə məlumatlandırıcı posterlərin paylaşılması; | | |
| | | Təhsilalanlar üçün imkanların artırılması məqsədilə Türkiyə, Macarıstan, İspaniya və digər ölkə universitetləri ilə əlaqələrin genişləndirilməsi | | 2024-cü ilin sentyabrın 4-də Xəzər Universiteti Çin Xalq Respublikasının Təhsil Nazirliyinin Dil Təhsili və Əməkdaşlıq Mərkəzinin baş direktorunun müavini Yu Tianqi`nin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilmişdir. (https://khazar.org/az/news/7545)<br>2025-ci ilin yanvarın 6-da Şimali Kiprin Doğu Akdeniz Universitetinin nümayəndə heyəti ilə Xəzər Universiteti arasında qarşılıqlı anlaşma memorandumu imzalanmışdır. (https://khazar.org/az/news/7796)<br>2025-ci ilin martın 5-də Qazaxıstan Respublikasının TURAN Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru Dr. Tayauova Gulzhanat ilə görüş keçirilmişdir. (https://khazar.org/az/news/7899)<br>2025-ci il aprelin 29-da Türkiyənin Üsküdar Universitetinin nümayəndə heyəti ilə Xəzər Universiteti arasında qarşılıqlı anlaşma memorandumu imzalanmışdır. (https://khazar.org/az/news/8042)<br>2025-ci il mayın 8-də Xəzər Universitetində İslamabad Vəqf Universitetinin nümayəndə heyəti ilə görüş keçirilmiş, qarşılıqlı anlaşma memorandumu imzalanmışdır. (https://khazar.org/az/news/8044)<br>2025-ci il mayın 6-7-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı və İngilis dili və ədəbiyyatı departamentinin müdiri Dr. Milana Abbasovanın rəhbərlik etdiyi Xəzər Universitetinin nümayəndə heyəti Çin Xalq Respublikasının Hefey şəhərində yerləşən Anhui Universitetinə rəsmi səfər etmişdir. (https://khazar.org/az/news/8060)<br><br>2025-ci il iyunun 23-də Xəzər Universitetində Türkiyənin Konya Texniki Universitetinin nümayəndə heyəti ilə görüş keçirilmiş, qarşılıqlı anlaşma memorandumu imzalanmışdır. (https://khazar.org/az/news/8160) |

| | | | | |
|---|---|---|---|---|
| 7.2. | İkili diplom proqramından yararlanan tələbələrin sayının artırılması üçün fəaliyyətin təkmilləşdirilməsi | Portuqaliyanın Braqanza Politexnik İnstitutu ilə ikili diplom proqramında mövcud olan 8 ixtisasın artırılması imkanlarının araşdırılması | Sentyabr 2024 - İyun 2025 | Portuqaliyanın Braqanza Politexnik İnstitutu ilə ikili diplom proqramı çərçivəsində mövcud ixtisasların artırılması ilə bağlı imkanlar araşdırılmış və bu məsələnin növbəti tədris illərində yenidən müzakirə edilməsi qarşıya qoyulmuşdur. |
| | | Portuqaliyanın Braqanza Politexnik İnstitutu ilə mövcud ikili diplom proqramında təhsilalanların ödənişli əsaslar ilə iştirakının tələbələr arasında təbliğ olunması | | 2024/25-ci tədris ili ərzində keçirilmiş məlumatlardırma sessiyaları çərçivəsində universitet tələbələri Portuqaliyanın Braqanza Politexnik İnstitutu ilə mövcud ikili diplom proqramının təbliğatı aparılmışdır. |
| | | Türkiyə, Çin, Misir, Avropa və digər ölkələrdəki universitetlər ilə yeni İkili Diplom Proqramlarının həyata keçirilmə imkanlarının araşdırılması və icrası | | 2025-ci il iyunun 9-13-də İngilis dili və ədəbiyyatı departamentinin müdiri, Dr. Milana Abbasova Türkiyənin Qazi Universitetinə Erasmus+ proqramı çərçivəsində işgüzar səfər etmiş, Prof. Paşa Tevfik ilə keçirilən görüşdə ikili diplom proqramı üzrə əməkdaşlıq imkanları, birgə akademik tədbirlərin təşkili, eləcə də dil tədrisi metodlarının tətbiqi və mübadiləsi ilə bağlı geniş müzakirələr aparılmışdır. (https://khazar.org/az/news/8194) |
| 7.3. | Beynəlxalq reytinqlərdə təmsil olunma ilə bağlı növbəti dövr üçün Strateji Planda hədəf indikatorlarının qoyulması zamanı | Beynəlxalq reytinqlər üzrə ölçüləbilən hədəf indikatorlarının müəyyənləşdirilməsi | Sentyabr 2024 - İyun 2025 | 2024/25-ci tədris ili ərzində beynəlxalq reytinqlər üzrə ölçülə bilən hədəf indikatorlarının müəyyənləşdirilməsi istiqamətində işlər həyata keçirilmişdir. Xəzər Universitetinin iştirak etdiyi QS Dünya Universitetləri Reytinqi, QS Avropa Universitetləri Reytinqi, THE Impact Reytinqi və Eduniversal Reytinqi üzrə əsas göstəricilər təhlil olunmuş, mövqelərin yaxşılaşdırılmasına xidmət edən hədəf indikatorları formalaşdırılmışdır. |

| | | | | |
|---|---|---|---|---|
| | onların ölçüləbilən olmasına diqqətin artırılması və rəqəmsal dinamikanın izlənilməsi üçün müvafiq meyarların müəyyən edilməsi | | | |
| 7.4. | Beynəlmiləlləşmə performansını qiymətləndirməyə şərait yaradan monitorinq mexanizminin təkmilləşdirilməsi | Beynəlmiləlləşmə istiqaməti üzrə hədəf indikatorlarının müəyyənləşdirilməsi | Sentyabr 2024-İyun 2025 | Beynəlmiləlləşmə performansının qiymətləndirməyə şərait yaradan monitorinq mexanizminin təkmilləşdirilməsi istiqamətində hədəf indikatorların müəyyənləşdirilməsi üzrə işlər mərhələli şəkildə davam etdirilir. |
| 7.5. | Strateji Planda “Beynəlmiləlləşmə istiqaməti üzrə nəzərdə tutulan bütün hədəflər və tədbirlər planı üzrə hesabatlılığın təmin olunması | Hesabatların hədəflər üzrə hazırlanması | Sentyabr 2024-İyun 2025 | Hədəf indikatorların müyyənləşdirilməsi üzrə işlər yekunlaşdırıldıqdan sonra hesabatlılığın təmin olunması nəzərdə tutulur. |